# NADİR ŞƏXSİYYƏT

**Xuraman MƏMMƏDOVA**
***C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının Hərbi-vətənpərvərlik və kütləvi işlər şöbəsinin müdiri***

Mübaliğəsiz demək olar ki, Azərbaycanda eləcə də universitetdə kitabxanaçılıq və kitabxanaşünaslıq istiqamətlərinin yaradılması və inkişafı birbaşa professorumuz A.Xələfovun adı ilə bağlıdır. Çünki XX əsrin ortalarında BDU-da yenicə təşkil edilən kitabxanaçılıq kafedrası əsasında bu gün universitetin aparıcı fakültələrindən birinə çevrilmiş Kitabxanaçılıq fakültəsinin yaradıcısı Abuzər müəllim olmuşdur. Kitabxanaçı kadrların hazırlayan, respublikanın çoxsaylı əsaslı elmi kitabxanalarında, respublikamızın şəhər və rayonlarında çalışan mütəxəssislər özləri də Abuzər müəllimin tələbələridir.

Onun gələcəkdə örnək olan ömür yolunun 80-ci ilindən arxaya baxdıqda, bu pedaqoqun namuslu, qeyrətli, vicdanlı bir ziyalı, vətənpərvər bir insan olduğuna görə bəhrələnəcək bir qürur hissi keçirirəm. Enişli-yoxuşlu həyat yolunu əməksevərliyi və cəsarəti ilə şərəflə keçən bu möhtərəm insanın qurub yaratdığı məktəb bu gün özünün çiçəklənmə dövrünü yaşayır. Biz də bu məktəbin davamçılarıyıq. İş yoldaşlarımızın tələbə dostlarımızın arasında Abuzər müəllim haqqında söhbət düşəndə gözümün qabağında nurani insan simalı, ağıllı məsləhətlər verən xoş əməllər sahibi, istedadlı alim, el ağsaqqalı durur. Tələbələrlə daim təmasda olan, onların ehtiyac və qayğıları ilə yaşayıb, imkan düşdükdə köməklik edən əziz müəllimimiz canıyananlığı, həssaslığı ilə həmişə bir ata, qardaş mövqeyində olub. Savadlı, intellektual səviyyəli olmaqla bərabər o həm də dininə hörmətli yanaşmağı, islami ideyalarla yaşamağı özünə borc bilmişdir.

Abuzər müəllimin 80 illik yubileyinə həsr olunmuş tədbirlər məndə tələbəlik illərinin, Kitabxanaçılıq fakültəsinin, başda Abuzər müəllim olmaqla müəllim kollektivinin xoş xatirələrini yenidən gözüm önündə canlandırdı. Taleyimdən razıyam ki, tərbiyə və təhsili yüksək qiymətləndirən bu elm fədaisinin tələbələrindən biri də mən olmuşam. Onun xarici görünüşü nə qədər zəhmli və ciddi olsa da, bir o qədər də səmimi və safdır. Məhz onun mühazirələri kitabxana işini bizə sevdirib. Bizə bu sənətin incəliklərini öyrədən sizsiniz, hörmətli müəllimimiz.

Yaradıcı şəxsiyyətlərin xidmətlərinə həm xalqımız, həm də dövlətimiz yüksək qiymət verir. Mən elə hesab edirəm ki, əməyinin bəhrəsini düzgün və vaxtında qiymətləndirildiyini görən insanlar xoşbəxt adamlardırlar. Abuzər müəllim də belə bir pay düşmüşdür. Nə gözəl ki, dünyada belə nadir şəxsiyyətlər var. Gəlin ona əvvəlcə cansağlığı, sonra yaradıcılıq uğurları arzulayaq.